# I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində dəyəri milyardlarla dollar təşkil edən layihələrlə bağlı sənədlər imzalanıb

Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında Bakıda "Parçalanmış qlobal iqtisadiyyatda Şərq-Qərb, Şimal-Cənub əlaqələrinin gücləndirilməsi" mövzusunda I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forum İqtisadiyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı, "The European House - "Ambrosetti" beyin mərkəzinin strateji tərəfdaşlığı, həmçinin "Euronews"un media və "Sea Breeze" turizm zonasının təşkilati dəstəyi ilə baş tutub.

Tədbirdə müxtəlif ölkələrdən yüksəksəviyyəli rəsmilər, biznes nümayəndələri, qlobal investorlar, dünyanın aparıcı yerli və beynəlxalq şirkətlərinin, maliyyə institutlarının, beyin mərkəzlərinin, yerli və xarici medianın təmsilçiləri daxil olmaqla ümumilikdə 1000-ə yaxın iştirakçı yer alıb.

Forum çərçivəsində ümumi dəyəri 10 milyard dollardan çox olan investisiya layihələrinə dair sənədlər imzalanıb. Bunlardan ölkəmizdə xarici investisiyaların cəlbi ilə qeyri-neft sektoru üzrə həyata keçirilməsi nəzərdə tutulan layihələrin dəyəri 7 milyard dollardan çoxdur.

"Yüksək dəmir tərkibli isti briketləşdirilmiş dəmir istehsalı üzrə birgə müəssisənin yaradılmasına dair Saziş"ə əsasən, ölkəmizə təqribən 700 milyon dollar dəyərində xarici investisiya yatırılacaq. Sənəd "Daşkəsən Dəmir Filiz" MMC və "Fonte GreenMet Investments Fund OEIC Limited" investisiya şirkəti arasında imzalanıb.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə Xəzər dənizi suyunun duzsuzlaşdırılması zavodunun layihələndirilməsi, tikintisi, maliyyələşdirilməsi və istismarına dair dəyəri 407 milyon dollar olan və xarici investisiya hesabına maliyyələşdirilən Dövlət-Özəl Tərəfdaşlığı Müqaviləsi imzalanıb. Bu layihə İqtisadiyyat Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlığı çərçivəsində ölkəmizdə icrası nəzərdə tutulan ilk pilot layihədir.

İqtisadiyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin "Modon Holding"i arasında "Şəhər daxilində şəhər" ("City within a City") konsepsiyasının inkişafına dair Əməkdaşlıq Müqaviləsi imzalanıb. Ümumi dəyəri təxminən 5 milyard dollar təşkil edən konsepsiya Böyükşor gölü ətrafında sağlamlıq, ticarət, təhsil və mehmanxana obyektlərini əhatə edən müasir sahilyanı zonanın yaradılmasını nəzərdə tutur.

İqtisadiyyat Nazirliyi ilə Beynəlxalq Maliyyə Korporasiyası (IFC) arasında dövlət-özəl tərəfdaşlığı sahəsində potensialın artırılması, İqtisadiyyat Nazirliyi ilə "MAN Truck & Bus SE" və "Improtex Trucks & Buses" şirkətləri arasında Azərbaycanda elektrik avtobuslarının istehsalı, İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi və "China Datang Overseas Investment Co" şirkəti arasında Azərbaycanda "Yaşıl Enerji Sənaye Parkı"nın yaradılmasına dair anlaşma memorandumları, AZPROMO və Dünya İqtisadi Forumu arasında Assosiativ Mərkəz Əməkdaşlıq Sazişi, Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) və "Basalt Group" MMC arasında "Azerbazalt Elmi-İstehsalat Birliyi" MMC-yə dair Birgə İştirak Müqaviləsi, ABİF və "ARGS Holding" MMC arasında "AzerFloat" QSC-nin nizamnamə kapitalına investisiya qoyuluşuna dair Birgə İştirak Müqaviləsi, "EEL electric" MMC və "ABB Group" arasında Modulyar Panel Sistemlərinin Quraşdırılması üzrə Müqavilə imzalanıb.

"See Breeze Resort" turizm zonası və "Crowne Plaza Hotels & Resorts by IHG", "MEAIT and Rixos", "Radisson Blue", "Digital Residence", "Sana Hospital Group", "Don Agro Intl" kimi tərəfdaşlar arasında imzalanan anlaşma memorandumları ümumilikdə ölkəmizə 500 milyon dollar xarici investisiyanın cəlbini nəzərdə tutur.

Forum çərçivəsində imzalanan sənədlər və əldə edilən razılaşmalar Azərbaycanın xarici sərmayə üçün açıq və dayanıqlı iqtisadi mühitini, ölkənin strateji layihələr və uzunmüddətli əməkdaşlıqlar üçün etibarlı tərəfdaş olduğunu nümayiş etdirir. Böyükmiqyaslı sərmayələr Azərbaycanın investisiya cəlbediciliyini bir daha təsdiqləməklə yanaşı, innovasiya və texnologiya transferini sürətləndirir, dayanıqlı inkişaf məqsədlərinə nail olmaqda yeni imkanlar açır.

Tədbir çərçivəsində SOCAR ilə "Italiana Petroli S.p.A." və "MIP S.p.A." arasında səhm alqı-satqısı sazişi imzalanıb. Saziş Azərbaycanın qlobal enerji təhlükəsizliyində rolunun möhkəmlənməsinə, Avropa bazarına birbaşa çıxış imkanlarının artmasına, dəyər zəncirinin genişlənməsinə və logistika üstünlüklərinin güclənməsinə mühüm töhfələr verəcək. Azərbaycanın beynəlxalq investor kimi artan gücünü nümayiş etdirən bu əməkdaşlıq SOCAR-ın dərin bilik və təcrübəsinə göstərilən etimadın bariz nümunəsidir.

Azərbaycan. - 2025.- 24 sentyabr (№204).- S.7.